AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin
F-50 nömrəli 07 08 2020-ci il
tarixli qərarı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİAT SƏVİYYƏSİNİN (ƏSAS (BAZA) ALİ TƏHSİLİNİN) İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 050210 Politologiya**

BAKI – 2020

# BAKALAVRİAT SƏVİYYƏSİNİN 050210 Politologiya İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **"050210 Politologiya"** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **"050210 Politologiya"** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

*2.1. **Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:***

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma bacarıqlarına;

- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə qabiliyyətlərinə;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək bacarığına;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuruna və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;
- Sistemli düşünə bilmək, sistemləri təhlil edərək elementlər arasında əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemli əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək səriştəsi;
- Strateji baxış formalaşdırmaq, fəaliyətin mümkün nəticələrini görə bilmək (mümkün, ehtimal edilən və arzu olunan), dərk etmək və qiymətləndirmək qabiliyyəti, fəaliyyyətin gələcəyi haqqında aydın fikirə malik olmaq, risk və baş verə biləcək dəyişiklkləri nəzərə almaq, qərarların qəbulunda yenilikçi və yaradıcı olmaq bacarığı;
- Başqalarına qulaq asmaq, dinləmək, onların ehtiyaclarını, hərəkətlərini anlamaq, fikirlərini öyrənmək, yaranan münaqişələri həll etmək, problemlərin həllinə yönəlik kollektiv əməkdaşlıqda iştirak və fərqli yanaşmalardan istifadə bacarığı;
- Qəbul edilmiş norma, yanaşma və fikirləri tənqidi təhlil etmək, öz baxışlarına və fəaliyyətinə tənqidi yanaşmaq, cəmiyyətdə öz rolunu tənqidi qiymətləndirmək bacarığı.

## 2.2 *Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:*

- Müasir dünyanın siyasi xəritəsi, siyasi-ərazi strukturu, onun dinamikası və bütün qitələr üzrə ən yeni transformasiyalar haqqında adekvat təsəvvürə malik olaraq, coğrafi biliklər və arqumentlər əsasında beynəlxalq siyasi prosesləri təhlil etmək və qiymətləndirməyi bacarmaq; (PK-1)

- Dünyanın siyasi sisteminin formalaşmasını, təkamülünü və müasir siyasi sistemində baş verən hadisələrə təsirini təhlil etmək, tarixi və müasir siyasi hadisələr və proseslər arasında əlaqəni və varisliyi müəyyən etməyi bacarmaq; (PK-2)
- Siyasi tarix sahəsində dərin biliklərə malik olaraq, dünyanın müasir siyasi sistemində baş verən proseslərin səbəblərini müəyyən etmək və dövlətlərin, siyasi institutların, qeyri-hökumət subyektlərinin qarşılıqlı münasibətlərini təhlil etmək; (PK-3)
- Siyasi-ictimai mütəfəkkirlərin dövlət, hüquq, ictimai və siyasi münasibətlərə dair təlim və nəzəriyyələrini ilkin mənbələr əsasında təhlil edərək, çağdaş beynəlxalq siyasi prosesləri və siyasi institutların fəaliyyətini qiymətləndirmək, habelə mühakimələr və proqnozlar irəli sürməyi bacarmaq; müasir azərbaycanlı kimliyinin və azərbaycançılq ideologiyasının formalaşmasında siyasi təlimlərin rolunu və təsirini müəyyən etmək (PK-4)
- Siyasi elmin əsas kateqoriyaları, paradiqmaları, metodları, konsepsiyaları, nəzəriyyələrini mənimsəyərək, siyasətin institusional və qeyri-institusional sferaları, siyasi hakimiyyətin xüsusiyyətləri, siyasi elita və siyasi liderlər, siyasi sistemlər və siyasi rejimlər, siyasi ideologiya, siyasi mədəniyyətlə bağlı təhlillər aparmağı bacarmaq; (PK-5)
- Müxtəlif ölkələrin siyasi sistemlərini müqayisəli öyrənərək siyasi gücün/hakimiyyətin istifadəsi və bölünməsi, siyasi təzahürlər arasında ümumi və fərqli xüsusiyyətləri müəyyən etmək, sözügedən dövlətlərdə qanunverici-icraedici hakimiyyətlər arasında qarşılıqlı əlaqələri, mövcud olan siyasi rejimləri, mərkəzi və yerli hakimiyyətlər arasında münasibətləri, fəaliyyət göstərən siyasi partiyaları, siyasi prosesləri təhlil etmək və siyasi idarəetmənin həyata keçirilməsində ayrı-ayrı fərdlərin siyasi qrupların və elitanın rolunu müəyyən etməyi bacarmaq; (PK-6)
- Xarici siyasətin mahiyyəti, qurulma və reallaşma mexanizmi, xarici siyasət sahəsində qərarların qəbul edilməsi prosesinin mərhələləri və bu prosesə təsir edən amilləri təhlil etmək; xarici siyasətə dair nəzəriyyələrdən müxtəlif dövlətlərin xarici siyasət kursunun formalaşması və reallaşdırılmasının proqnozlaşdırılması prosesində istifadə etməyi bacarmaq; (PK-7)
- Siyasi və ilkin elmi araşdırmalar apamaq üçün sosial emlərdə geniş yayılmış kəmiyyət və keyfiyyət metodlarından istifadə etməyi bacarmaq, bu üsul və metodlardan istifadə etməklə optimal qərarlar verə bilmək; tədqiqat istiqaməti üzrə uyğun və etibarlı informasiyanı fəqləndirməyi bacarmaq; (PK-8)
- Beynəlxalq münasibətlərin əsas nəzəriyyələrini dərindən mənimsəyərək, müasir beynəlxalq münasibətlər sistemində baş verən prosesləri və hadisələri şərh etmək, qlobal, regional və ölkə səviyyələrində beynəlxalq problemləri təhlil etmək, beynəlxalq proseslərin səbəb-natica əlaqələrini aşkar etmək, izah etmək və proqnozlaşdırmağı bacarmaq; (PK-9)

- Psixoloji bilikləri tətbiq edərək siyasi hadisələri təhlil və izah etməyi bacarmaq; Sosial və siyasi qrupların/kütlələrin davranışının psixoloji aspektlərini təhlil etməyi bacarmaq; Siyasi liderlərin davranış və fəaliyyətlərini təhlil edib qiymətləndirməyi bacarmaq; (PK-10)
- Siyasi sistemlərin ideoloji əsaslarının və dəyərlər sisteminin dərindən təhlili əsasında milli siyasi sistemin inkişafında faydalı olacaq təklif və tövsiyələr irəli sürməyi bacarmaq; siyasi ideologiyaların müasir cəmiyyətlərdə, siyasi sistemlərin idarə olunmasında rolunu müəyyən etməyi bacarmaq; müxtəlif dinlərin fəaliyyətində ideoloji amilləri tənqidi təhlil edə və onun siyasi proseslərə təsirini qiymətləndirə bilmək; (PK-11)
- Müasir münaqişələrin səbəbləri, inkişaf qanunauğunluqları, nəticələrinə dair nəzəri və praktik biliklər əsasında onların tənzimlənməsi prosesini həyata keçirmək, münaqişələrin həlli texnologiyalarından istifadə etməyi bacarmaq; (PK-12)
- Azərbaycan Respublikasının xarici siyasət mexanizmi, xarici siyasətinin əsas prinsipləri, prioritetləri, istiqamətləri, müxtəlif dövlətlərlə siyasi, hərbi, diplomatik, iqtisadi və mədəni sahələrdə ikitərəfli münasibətləri, beynəlxalq təşkilatlarla əlaqələri, enerji siyasəti və onun regional və beynəlxalq münasibətlər sisteminə təsirini təhlil etmək; xarici siyasət qarşısında duran əsas çağırışları, riskləri və problemləri müəyyyən etmək; xarixi siyasətin həyata keçirilən əsas istiqamətləri üzrə proqnozlaşdırma bacarığına malik olmaq; (PK-13)
- Beynəlxalq hüquq münasibətlərinin ayrı-ayrı növlərinin tənzimlənməsi elementlərini, beynəlxalq müqavilələr də daxil olmaqla beynəlxalq hüququn mənbələrinin məzmunu və milli hüquq sistemində yeri, o cümlədən tətbiqi xüsusiyyətlərini, beynəlxalq hüququn əsas prinsiplərinin beynəlxalq-hüquqi tənzimetmədə rolunu, beynəlxalq təşkilatların və beynəlxalq məhkəmə qurumlarının beynəlxalq və milli hüquqi tənzimetmədə əhəmiyyətini, nəhayət beynəlxalq hüququn ayrı-ayrı sahələrinin əsas xüsusiyyətlərini və istiqamətlərini bilmək; (PK-14)
- Beynəlxalq hüququn prinsip və normalarını beynəlxalq proseslərin və hadisələrin təhlilində və qiymətləndirməsində təqtbiq etməyi bacarmaq; (PK-15)
- İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi göstəriciləri, problemləri və prosesləri bilmək; Milli iqtisadiyyatın makroiqtisadi mənzərəsini, sosial-iqtisadi göstəricilərin dinamikasını, iqtisadi siyasətin əsas konturlarını bilmək, sektorial təhlil aparmağı bacarmaq; iqtisadi təhlil, makroiqtisadi diaqnostika sahəsi üzrə baza biliklərə sahib olmaq və təhlil etməyi bacarmaq; milli iqtisadiyyatların beynəlxalq iqtisadiyyatdakı rolu, müxtəlif ölkələrin iqtisadiyyatını müqayisəli şəkildə təhlil etməyi bacarmaq; (PK-16)
- Siyasi məlumatların təhlili və sistemləşdirilməsi üçün statistik biliklərə sahib olmaq, kəmiyyət və keyfiyyət məlumatlarını toplamaq, təhlil etmək, ölçmək və proqnozlaşdırmanı bacarmaq; (PK-17)

- Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdid yaradan əsas təhlükələr və riskləri müəyyən etmək və qiymətləndirmək, bu təhlükə və riskləri idarə etmək və tənzimləməyi bacarmaq; (PK-18)
- Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilmək, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmaq; (PK-19)
- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işinin qurulmasını bilmək və liderlik prinsiplərinə yiyələnmək; (PK-20)
- Layihələrin hazırlanması idarə edilməsində iştirak etmək və digər çox istifadə olunan proqram təminatlarından istifadəni bacarmaq, iş həyatında şifahi və yazılı kommunikasiya vasitələrindən istifadə etməyi bacarmaq; (PK-21)
- Media materialları ilə işləmək, müəyyən mövzular üzrə araşdırmalar aparmaq, faktiki materialları toplamaq, ümumiləşdirmək, nəticə çıxarmağı bacarmaq; (PK-22)
- Strateji düşüncə tərzini formalaşdırmaq, strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarmaq; informasiya resurslarının strateji idarəolunmasını bacarmaq; strateji idarəetmə metodlarını tətbiq etməyi bacarmaq; (PK-23)
- Müxtəlif dövlətlərin siyasi partiyaları, partiya və seçki sistemləri haqında biliklərə əsaslanaraq bu sahədə müstəqil tədqiqat/araşdırma aparmağı bacarmaq; XXI əsrdə siyasi partiyalar və partiya sistemlərinin inkişaf istiqamətləri və perspektivlərini müəyyənləşdirməyi bacarmaq; (PK-24)
- İnformasiyanı siyasi məqsədlər üçün idarə edə və tənzimləyə bilmək; dövlətin informasiya siyasəti və media ilə iş sahəsində səriştələrə malikdir; müəyyən olunmuş vəzifələrə uyğun informasiya axınını yönləndirməyi bacarmaq; (PK-25)
- Beynəlxalq münasibətlər və dünya siyasəti ilə bağlı konkret problemləri və məsələləri dərindən təhlil etmək səriştəsinə malik olmaq;(PK-26)

## 3. Təhsil Proqramının strukturu

3.1. **"050210 Politologiya"** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycanın tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranmasını, mərhələlərini, formalaşmasını və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin güclənməsində siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün müxtəlif tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn cərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4 | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | 6 |
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları<br>Məntiq<br>Etika | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi | 3 |

| | | |
|---|---|---|
| | Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | |
| | **İxtisas fənləri** | **120** |
| 5 | **Siyasi coğrafiya**<br>Fənlərarası xarakerə malik bu kurs çərçivəsində tələbələrə fiziki və mədəni-coğrafi amillərlə siyasi proseslər arasında əlaqələr öyrədilir; siyasi coğrafiyanın əsas anlayışları, kateqoriyaları, istiqamətləri, inkişaf mərhələləri; sərhədlər, onların tipologiyaları, təsnifatı; dünyanın müxtəlif regionlarında dövlətlərin ərazilərinin, onların siyasi-coğrafi sərhədlərinin formalaşması, siyasi quruluşun, daxili və xarici siyasətinin xüsusiyyətlərinin coğrafi amillərlə bağlılığı öyrənilir, əhalinin sosial strukturunda coğrafi fərqlər nəzərdən keçirilir, partiyaların, siyasi qüvvələrin yerləşməsinin, habelə müxtəlif hakimiyyət orqanlarına seçkilərin coğrafi xüsusiyyətləri, əhalinin milli və dini tərkibinin coğrafi əsasları öyrənilir. Kurs çərçivəsində müasir beynəlxalq münasibətlərin və münaqişələrin (xüsusilə daxili münaqişələrin) coğrafi şərtləri (səbəbləri) öyrənilir. | 3 |
| 6 | **Siyasi tarix**<br>Bu fənn ən qədim dövrlərdən başlayaraq müasir dövrədək dünyanın siyasi sisteminin formalaşmasını və siyasi inkişaf (ö cümlədən siyasi institutların inkişafı) prosesini mərhələlərlə - ardıcıllıqla tədris edir; **dünya ölkələrinin siyasi tarixinin antik dövrü:** siyasi münasibətlərin mərkəzləşmiş formalarının və ilk dövlət qurumlarının yaranması(qərbdə və şərqdə), siyasi idarəetmənin imperiya formasının meydana gəlməsi, demokratik idarəetmə formasına malik antik dövlətlər, Qeyri dövlət subyektləri; **siyasi tarixin orta əsrlər dövrü:** avtoritar formalı siyasi münasibətlər, teokratik formada idarəetmə, mütləqiyyət formalı idarəetmə, feodal demokratiyalar, qeyri dövlət subyektlər, Vestfal sisteminin yaranması; **yeni dövrdə siyasi tarixin inkişafı:** siyasi münasibətlərin zorakı və demokratik formaları, dünyanın siyasi sitemində liderlik uğrunda mübarizə, dünyanın siyasi siteminin təməl ölkələri arasında siyasi münasibətlərin razılaşdırılmış normalarının hazırlanması, qeyri dövlət subyektlərin yeni dövrdə təkamülü, ilk qlobal siyasi sitemin - Versal-Vaşinqton sisteminin formalaşması; **müasir dövrdə dünya ölkələrinin siyasi tarixinin inkişafı:** liberal və ənənvi siyasi münasibətlər, fövqəlmilli dövlət və ictimai siyasi strukturların yaranması, qeyri dövlət subyektləri müasir dövrdə.<br>Dünya ölkələrinin siyasi tarixi öyrənilərkən siyasi modernləşmə və müasir siyasi cəmiyyətin yaranması, gücün, hakimiyyətin, diplomatiyanın, müharibənin təkamülü nəzərdə saxlanılır. Əsas | 6 |

| | | |
|---|---|---|
| | məqsəd dünyanın siyasi inkişaf prosesində təkamül və inqilab modellərinin nisbətinin öyrənilməsidir.<br>Siyasi tarixi fənni müasir siyasi münasibətlərin, proseslərin və nəzəriyyələrin öyrənilməsi və təqdqiqi üçün dərin metodoloji və praktik əsas yaradır. | |
| 7 | **Sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, cəmiyyətin əsas hissələrinin və proseslərinin qarşılıqlı təsirdə sosioloji təhlilini təqdim edir. Bu təhlil istər sosial faktların, istərsə də onları izah edən sosial modellərin və ya nəzəriyyələrin öyrənilməsinə əsaslanır. Burada ümumi sosiologiyanın strukturu, predmeti, metodologiyası, metodlarının xüsusiyyətləri, müasir sosioloji biliyin nəzəri səviyyələri, eləcə də xüsusi sosioloji konsepsiyaların müxtəlifliyini təhlil və tədqiq edilir, bu sahədə elmi axtarışların mümkün perspektivləri öyrənilir. | **5** |
| 8 | **Siyasi fikir tarixi**<br>Bu fənn siyasi təlimlərin yaranması və inkişafı, qədim dünyada siyasi təlimləri, qədim Yunanıstan və Romanın siyasi təlimləri, qədim Hindistan və Çinin siyasi düşüncəsi, Avropa və Şərq dünyagörüşünün fərqləri, şərqdə hakimiyyət və hökmdar haqqında təsəvvürlər, orta əsrlərin sosiomədəni və intellektual özünəməxsusluğu və orta əsrlərin siyasi təlimlərinin xarakterik xüsusiyyətləri, yeni dövrün siyasi düşüncəsində cəmiyyət, dövlət və hüquq, intibah dövrünün ümumi xüsusiyyətləri və xarakteri, siyasətin xüsusi fəaliyyət sahəsi kimi formalaşması, vətəndaş cəmiyyəti haqqında nəzəriyyələr, maarifçilik dövrünün sosial-siyasi ideyalarının ümumi xüsusiyyətləri, hüquqi dövlətdə hakimiyyət bölgüsü nəzəriyyəsi, xalq suverenliyi və birbaşa xalq hakimiyyəti ideyası, alman klassik fəlsəfəsi, XVIII əsrdə ABŞ-da siyasi və hüquqi təlimlər, Almaniya və İngiltərədə XVIII əsrin sonunda siyasi təlimlər, XIX əsrdə Avropada siyasi ideyalar, XX əsrdə Qərbdə siyasi və hüquqi təlimləri və s. tədris edir. | **8** |
| 9 | **Siyasət nəzəriyyəsi**<br>Fənnin çərçivəsində tələbələr siyasi nəzəriyyənin əsas kateqoriyalarını, paradiqmaları, siyasi elmin əsas metodlarını, müasir politoloji konsepsiyalar və nəzəriyyələri, siyasətin institusional və qeyri-institusional sferaları, siyasi hakimiyyətin xüsusiyyətlərini, siyasi elita və siyasi liderləri, dövlət siyasi institut kimi, siyasi partiyalar və ictimai hərəkatları, siyasi sistemlər və siyasi rejimləri, siyasi ideologiya, siyasi psixologiya, siyasi mədəniyyət və siyasi prosesləri öyrənirlər. | **6** |
| 10 | **Müqayisəli politologiya**<br>Fənnin məqsədi dünya miqyasında siyasi modelləri müqayisə etməklə fərqlilikləri və oxşarlıqları tədqiq etməkdir. Ölkələr daxilində, ölkələr | **6** |

| | | |
|---|---|---|
| | və regionlar arasında siyasətlər təhlil olunur; siyasi institutlar və rejimlər, insan hüquqları, elektoral davranışlar və prosedurlar, kimlik, demokratiya konsepsiyası, ideologiya və mədəniyyət, ictimai siyasət, siyasi zorakılıq, ictimai hərəkatlar və təşkilatlar, etirzlar və inqilablar, siyasi modernləşmə, siyasi sistemlər, parlamentlər, partiya və seçki sistemlərinin müqayisəli təhlili öyrədilir.<br>Müqayisəli politologiya çərçivəsində aparılan təhlillər sistemli müqayisələr aparmaq, nəzəriyyələr qurmaq, nəzəriyyləri praktikada yoxlamaq baxımından mühüm əhəmiyyət kəsb edir. | |
| 11 | **Xarici siyasətin təhlili**<br>Fənn çərçivəsində xarici siyasət mexanizmi, xarici siyasət sahəsində qərarların qəbul edilməsi prosesinin mərhələləri, prosesə təsir edən amillər, müxtəlif dövlətlərdə xarici siyasət qərarlarının qəbul edilməsi prosesinin xüsusiyyətləri və xarici siyasətin proqnozlaşdırılması tədris olunur. Xarici siyasətin təhlili ilə məşğul olan aparıcı dünya (beyin mərkəzləri) mərkəzləri, müxtəlif dövlətlərin xarici siyasət kursunun təhlili, xarici siyasətə aid olan məlumatların/faktların təhlili kimi məsələlər də kursa daxildir. | **4** |
| 12 | **Beynəlxalq münasibətlər nəzəriyyəsi**<br>Bu fənn beynəlxalq münasibətləri öyrənən əsas nəzəriyyələri və yanaşmaları dərindən təhlil edərək öyrənilməsini nəzərdə tutur. Öyrənilən hər bir nəzəriyyənin praktik nümunələr (situasiyalar) üzərində tətbiq olunması kursun tədrisinin əsas hissəsini təşkil edir. Bundan əlavə, beynəlxalq münasibətlərin əsas anlayışları, metodları, strukturu, proseslər, təzahürlər, habelə çağdaş dövrün əsas problemlərinin təhlili kurs çərçivəsində tədris olunur. Beynəlxalq münasibətlərin nəzəriyyəsi beynəlxalq siyasətin öyrənilməsinin metodoloji əsasını təşkil edir. | **6** |
| 13 | **Siyasi ideologiyalar**<br>Bu fənn ideologiya anlayışının təkamülünü və onun müasir mənasını, siyasi ideologiya kateqoriyası, onun funksiyaları, səviyyələri və fəaliyyət mexanizmini oyrədir;fənn çərçivəsində ənənəvi ideologiyaların, sağ və sol ictimai hərəkatların doktrina və konsepsiyalarını, islamın, xristianlığın və digər geniş yayılmış dinlərin sosial-siyasi doktrinalarını tədris edir. | **3** |
| 14 | **Azərbaycanın siyasi təlimlər tarixi**<br>Bu fənn ən qədim dövrdən müasir dövrə kimi Azərbaycanlı mütəfəkkirlərin sosial-siyasi və hüquqi görüşləri, siyasi ideyaları, onların hüquq, söz və mətbuat azadlığı, bərabərlik, sosial-ədalət və s. haqqında ən vacib və fundamental nəzəri fikirlərini tədris edir. Azərbaycanın siyasi təlimlər tarixinin inkişafında əsas mərhələlər öyrənilərkən XIX -XX əsrin əvvəllərində milli kimlik, azərbaycançılıq | **4** |

| | | |
|---|---|---|
| | idelogiyası, habelə milli dövlətin yaradılması ilə bağlı fikir və ideyalara xüsusi diqqət yetirilir. | |
| 15 | **Siyasi psixologiya**<br>Siyasi psixologiya fənni müasir siyasi psixologiya elminin inkişaf səviyyəsinə uyğun olan siyasi fəaliyyətin və siyasi şüurun mexanizmləri, qanunauyğunluqlarını öyrədir. Bu fənn siyasi psixologiya elminin klassik problemləri, müasir elmi məktəbləri, burada aparılan tədqiqatlarla yanaşı siyasi psixologiyanın mexanizmləri, tədqiqat metodları haqqında biliklər təqdim edir. Siyasət sahəsində şəxsi amillərin rolunu, siyasi liderlik anlayışını, siyasi liderin xüsusiyyətlərini, növlərini və funksiyalarını, kütləvi davranışın mexanizmlərini və formalarını, bu prosesdə emosiyaların rolu və əhəmiyyətini, siyasi kommunikasiyanın psixoloji xüsusiyyətlərini öyrədir. Siyası psixologiya fənni ümumi psixologiya və sosial psixologiya sahələrində mövcud olan biliklərdən istifadə edərək siyasi davranışı təhlil edir. Siyasi psixologiyada şəxsiyyət psixologiyasının, qrup probleminin, kütlələrin siyasətdə rolu, seçki kompaniyasının təşkilinin psixoloji mexanizmini araşdırılır. | 3 |
| 16 | **Müasir münaqişələr və sülh prosesi**<br>Fənn çərçivəsində münaqişələrə, xüsusilə vətəndaş münaqişələrinə/müharibələrinə dair müasir nəzəriyyələrin təhlil edilməsi, bu nəzəriyyələrin praktik münaqişələr üzərində tətbiq edilərək öyrənilməsi, XX əsrin sonu - XXI əsrdə baş verən münaqişələrin səbəbləri, növləri, formaları və onların həlli texnologiyaları haqqında biliklərin mənimsənilməsi, xüsusilə daxili münaqişələrin dünyada daha geniş yayılmasının səbəbləri, növləri, dünyanın müxtəlif regionlarında inkişaf dinamikası və beynəlxalq münasibətlərə təsirlərinin öyrənilməsi nəzərdə tutulur. Bundan əlavə fənnin tədrisi münaqişələrin tənzimlənməsinin və həllinin müasir dövrdə geniş yayılmış diplomatik-siyasi və xarici müdaxilə üsullarının dərindən təhlil edilməsini ehtiva edir. | 4 |
| 17 | **Azərbaycan Respublikasının xarici siyasəti**<br>Fənnin tədrisi Azərbaycan Respublikasının xarici siyasət mexanizmi, strukturu və xarici siyasət resursları, Azərbaycan Respublikasının xarici siyasətinin nəzəri-konseptual əsasları, əsas prinsipləri, prioritetləri, istiqamətləri, müxtəlif dövlətlərlə siyasi, hərbi, diplomatik, iqtisadi və mədəni sahələrdə ikitərəfli münasibətlərinin öyrənilməsini, ölkənin ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirilən diplomatik-siyasi fəaliyyətin, beynəlxalq təşkilatlarla əlaqələrin, müxtəlif beynəlxalq qurumların fəaliyyətində iştirakın, enerji siyasəti və onun regional və beynəlxalq münasibətlər sisteminə təsirinin və Azərbaycanın lider dövlətə çevrilməsi prosesinin təhlil edilərək öyrənilməsini nəzərdə tutur. | 4 |

| | | |
|---|---|---|
| 18 | **Siyasi təhlil və tənqidi təfəkkür**<br>İxtisaslı mütəxəssisin hazırlanması müstəqil təhlil və tədqiqatın aparılması, düzgün qərarların qəbul edilməsi bacarıqlarının formalaşdırılmasını tələb edir. Tələbələr tədris prosesində və peşə fəaliyyətində qarşıya qoyulan konkret məqsədləri və məsələləri həll etmək üçün bir sıra vacib nəzəri və empirik metodlara yiyələnirlər: Modellərin qurulması; analogiyaların aparılması; deduksiya; fərziyyələrin irəli sürülməsi; abstraksiya; müşahidə; eksperimentin aparılması; sorğuların keçirilməsi, təhlili, ümumiləşdirilməsi və qiymətləndirilməsi;delfi üsulu;kontent analiz; faktların/informasiyanın toplanması, seçilməsi, kompüter vasitəsi ilə emalı, onlar arasında əlaqənin qurulması; müqayisə; ölçmə; irəli sürülən fərziyyəni yoxlamaq üçün müxtəlif statistik təhlillərdən istifadə bacarığı və s.<br>Fənn çərçivəsində tələbələrdə məntiqi mühakimə yürütmə və tənqidi təfəkkür bacarıqlarını inkişaf etdirilir. Tələbələr deduksiya və induksiya yolu ilə nəticələr çıxarmaq, deduktiv və induktiv arqumentləri müəyyənləşdirmək və qiymətləndirmək, səfsətələrin mövcudluğunu aşkar etmək və onlara yol verməmək, tənqidi təfəkkürün əsas komponentlərini müəyyən edə bilmək bacarığına yiyələnirlər. Tələbələrə deduksiya, induksiya və arqumentasiya bacarığını tətbiq edərək şifahi və yazılı nitq vərdişlərini inkisaf etdirmək, məntiqi və tənqidi təfəkkür qabiliyyəti ilə tədqiqat aparmaq vərdişlərinin sintezinə nail olmaq öyrədilir.<br>Bununla yanaşı, fənnin tədrisinə riyazi məntiq elementlərinin daxil edilməsi tələbələrin gələcək təhsili üçün etibarlı zəmin yaradır. | 4 |
| 19 | **Beynəlxalq hüquq**<br>Dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında yaranan münasibətləri tənzim edən beynəlxalq ümumi hüquq çərçivəsində beynəlxalq münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsi xüsusiyyətləri, beynəlxalq hüququn subyektləri və mənbələri, beynəlxalq müqavilələr hüququ, beynəlxalq hüququn prinsipləri, beynəlxalq və milli hüququn qarşılıqlı nisbət məsələləri, beynəlxalq hüquqda məsuliyyət, beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi, beynəlxalq təşkilatlar hüququ, beynəlxalq təhlükəsizlik və xarici əlaqələr hüququ, beynəlxalq hüquqda ərazi, beynəlxalq dəniz hüququ, beynəlxalq hava hüququ, beynəlxalq kosmos hüququ, beynəlxalq iqtisadi hüquq, beynəlxalq ekologiya hüququ, beynəlxalq humanitar hüquq, beynəlxalq cinayət hüququ və beynəlxalq hüququn digər sahələri öyrənilir. Beynəlxalq hüququn hər bir sahəsinin əsas xüsusiyyətlərinin və elementlərinin təhlili Azərbaycan Respublikası milli qanunvericiliyinin təkmilləşdirilməsi nöqteyi-nəzərindən çox əhəmiyyətlidir. | 4 |

| | | |
|---|---|---|
| 20 | **İqtisadiyyatın əsasları**<br>Fənn çərçivəsində iqtisadi nəzəriyyənin əsas qanun və kateqoriyaları, iqtisad elminin konsepsiyaları və müasir iqtisadi fikrin əsas istiqamətləri, iqtisadi proseslər, iqtisadi qanunauyğunluqlar, iqtisadi alətlər, iqtisadi mexanizmlər, iqtisadi resurslar, bazar iqtisadiyyatı, bazar iqtisadiyyatında dövlətin rolu və funksiyaları, iqtisadi fəaliyyət, iqtisadi artım, milli iqtisadiyyat və dünya təsərrüfatı, makroiqtisadiyyat, mikroiqtisadiyyat, bazar iqtisadiyyatının modelləri haqqında biliklər əldə olunacaq;<br>bazar iqtisadiyyatının ümumi xarakteristikası verilir və məhdud iqtisadi ehtiyatların səmərəli istifadə olunmasında bazar mexanizminin rolu müəyyənləşdirilir;İqtisadi subyeklərin qərar qəbul etməsini şərtləndirən prinsiplər mənimsənilir. | 4 |
| 21 | **Siyasi partiyalar və seçki texnologiyaları**<br>Bu kurs siyasi partiyaların fəaliyyətini, siyasi sistemlərin inkişafında rolunu, seçki prosesinin nəzəriyyə və təcrübəsi haqqında əsaslı biliklər verir. Siyasi partiyaların anlayışı və mənşəyi, ideologiyaları; siyasi partiyaların strukturu, onların təsnifatı və institusional formaları, siyasətləri; partiya blokları və koalisiyalar; siyasi hərəkat və birliklər, siyasətdəki ictimai təşkilatlar; müasir partiya sistemlərinin növləri; partiya sistemlərinin müqayisəli təhlili; Qərb və Şərq ölkələrində partiya sistemlərinin xüsusiyyətləri; siyasi liderlik; siyasi partiyalararası rəqabət; postsovet məkanında çoxpartiyalı sistemin formalaşması; seçki prosesinin quruluşu və məzmunu; Azərbaycan Respublikasının partiya sisteminin xüsusiyyətləri; siyasi texnologiya anlayışı; seçki sistemlərinin spesifik növləri; seçki sistemlərinin və institutların seçki prosesinə təsirləri; seçki texnologiyalarının əsas xüsusiyyətləri və onların seçki kampaniyalarında həyata keçirilmə mexanizmi; səsvermə prosesində müxtəlif davranış modellərinin qiymətləndirilməsi və onların müasir seçki rəqabətində tətbiq olunması; yanlış seçki texnologiyalarının spesifikliyi və məzmunu; "Seçki kampaniyası" anlayışı və s. bu fənn çərçivəsində tədris edilir. | 4 |
| 22 | **Siyasi kommunikasiya**<br>Bu kurs qarşılıqlı siyasi fəaliyyətin subyektlərini, siyasi-hüquqi və dövlət institutlarını bir biri ilə əlaqələndirərək, siyasi hadisələrin məntiqiliyini və ardıcıllığının təmin olunmasını öyrdədir; siyasi sistemin müxtəlif elementləri arasında, habelə siyasi sistemlə cəmiyyət arasında siyasi informasiyanın fasiləsiz ötürülməsini təmin edən biliklər verir. Bu fənn informasiyanın siyasi məqsədlər üçün idarə olunmasını, siyasi sistemin daxilində, vətəndaş cəmiyyəti ilə, habelə fərdlərlə qarşılıqlı fəaliyyət mexanizmlərinin hazırlanmasını, siyasi | 4 |

| | | |
|---|---|---|
| | sosiallaşma prosesini, ictimai rəyin formalaşdırılması məsələlərini tədrsi edir. Əsas məqsəd siyasi sferada kommunikasiya proseslərinin öyrənilməsi və idarəedilməsinin tədris olunmasıdır. Kurs çərçivəsində, həmçinin siyasi kommunikasiyanın nəzəri konsepsiyaları və modelləri, siyasi sferada qarşılıqlı informasiya fəaliyyətinin təşkili üsulları, siyasi diskurs və mətnin xüsusiyyətləri, dövlətin informasiya siyasəti haqqında təsəvvürlərin formalaşdırılması, dövlət və mediastrukturlar arasında münasibətlərin xüsusiyyətləri və elitanın ictimai rəyə və siyasi davranışlara təsiri öyrədilir. | |
| 23 | **Müasir informasiya- kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi**<br>Fənn çərçivəsində müasir informasiya-kommunikasiya texnologiyalarının təsnifatı və xüsusiyyətləri; müxtəlif növ kompüter qurğuları və şəbəkə texnologiyaları daxil olmaqla, informasiya texnologiyalarının (İT) əsasları; İkilik say sistemləri kimi müxtəlif məlumatların təqdimetmə sxemləri; İT mühitində fəaliyyət göstərmək üçün lazım olan alətlər və tətbiqlərə giriş təqdim edilir; informasiyanın kompüter emalının əsas prinsipləri (kodlaşdırılması, saxlanması, ötürülməsi və s.) öyrədilir.<br>İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin inkişaf mərhələləri, müxtəlif sahələrdə informasiya texnologiyalarının rolu (Elektron həyat; Kommunikasiya; Virtual cəmiyyət; Elektron imza və s.); informasiya texnologiyalarının effektivliyinin meyarları, informasiya və kiber təhlükəsizlik;<br>Müasir əməliyyat sistemləri (ƏS) və onların iş prinsipi; Əməliyyat sistemlərində faylların idarə olunması;<br>Proqramlaşdırmanın əsasları;<br>Şəbəkələşmə;Veb sistemləri və texnologiyaları;<br>Veb səhifələrin hazırlanması (HTML kodları və WYSIWYG redaktorlar);<br>Süni intellekt sistemləri;<br>İnformasiya təhlükəsizliyi və ona nail olma yolları: şifrələmə üsulları; kriptosistemlər; steqanoqrafiya; informasiyanın gizlədilməsi üsulları; şəbəkə təhlükəsizliyi; rəqəm imza texnologiyası; kompüter və informasiyanın kiberhücumlardan qorunması və icazəsiz istifadəsinin qarşısını almaq üçün təhlükəsizlik tədbirlərindən istifadə etmək, antiviruslar və s.;<br>MS Office 365 paket proqramlarının tətbiqləri: MS Word mətn prosessorunun imkanları, MS Excel cədvəl prosessorunda mürəkkəb (ixtisas üzrə) cədvəllərin qurulması, hesablamaların aparılması və s., Təqdimatların hazırlanması, PDF faylların hazırlanması və redaktəsi, | 3 |

| | | |
|---|---|---|
| | Teams proqramı və s. proqramların (tətbiqi proqramların) imkanlarından istifadə;<br>Verilənlər bazası (VB), Verilənlər bazasının idarətmə sistemləri (VBİS) və onun imkanları öyrədilir. | |
| 24 | **İxtisas yönümlü xarici dil**<br>Fənn tələbələrə tədris olunan dilin səs quruluşunu, leksik-semantik təbiətini, lüğət tərkibini, dilin qrammatik strukturunu və tərkib elementlərini, leksik-qrammatik vahidlərin paradiqmatik və sintaqmatik əlaqələrini, onların funksionallığını və s. məsələləri nəzəri aspektdə öyrədir, eyni zamanda, bu biliklərin tətbiqi vərdişlərini formalaşdırır. Fənn çərçivəsində xarici dilə yiyələnmək üçün danışıq, yazı, oxu və dinləmə bacarıqları sistematik şəkildə inkişaf etdirilir. Bu fənn tələbələrdə öyrədilən dildə sərbəst formada fikir və düşüncələrini ifadə etmək, təqdim olunan dil materialının təhlilini aparmaq bacarığını da formalaşdırır. | 20 |
| 25 | **Mülki müdafiə**<br>Fənn çərçivəsində fövqəladə halların qarşısının alınması və aradan qaldırılması üçün vahid dövlət sistemi, təbii fəlakətlər zamanı təhlükəsizliyin təmin edilməsində vətəndaşların hüquq və vəzifələri, fərdi və kollektiv müdafiə prinsipləri, qəza-xilasetmə və digər təxirəsalınmaz işlər, ilk tibbi yardımın göstərilməsi, təcili təxliyə və bərpa tədbirləri, təhsil sahəsində mülki müdafiə tədbirləri təşkil etmək kimi məsələlər tədris olunur. | 3 |
| 26 | **Strateji idarəetmə**<br>Fənn çərçivəsində strateji idarəetmə və planlaşdırma, onun tarixi, əsas prinsipləri, məqsədləri, informasiya resurslarının strateji idarəolunması, informasiya savaşı, psixoloji savaş və təbliğat (propaqanda), siyasət sahəsində strateji idarəetmə, sosial sahədə strateji idarəetmə, iqtisadi sahədə starteji idarəetmə, strategiyanın hazırlanması prosesində vəziyyətin analizi, strateji məqsədlərin düzgün formalaşdırılması, daxili və xarici mühitin nəzərə alınması, təhlili, qərar qəbul etmə prosesi, qərarların qəbul edilməsi prosesində risklərin minimuma endirilməsi, strategiyaların qiymətləndirilməsinin kəmiyyət və keyfiyyət göstəriciləri, strategiyaların reallaşdırılması, nəzarət, strateji idarəetmənin effektliyinin qiymətləndirilməsi, qərar qəbul etmənin metodları, strateji idarəetmənin modelləri, strateji idarəetmənin instrumentləri kimi məsələlər tədris olunur. Əsas diqqət starteji təhlilin metodlarının öyrənilməsinə yönləndirilir. | 3 |
| 27 | **Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasları**<br>Fənn çərçivəsində milli təhlükəsizlik nəzəriyyələri, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin konseptual və hüquqi əsasları, prinsipləri, bütövlükdə milli təhlükəsizlik sistemi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli | 3 |

| | | |
|---|---|---|
| | təhlükəsizliyinə ən ciddi təhdid kimi, Azərbaycanın hərbi təhlükəsizliyi, iqtisadi təhlükəsizliyi, enerji təhlükəsizliyi, informasiya-ideoloji təhlükəsizliyi, ekoloji təhlükəsizliyi, Azərbaycanın beynəlxalq təhlükəsizliyin təmin edilməsi prosesində iştirakı, transmilli təhlükələrə qarşı mübarizə kimi məsələlər tədris olunur. | |
| 28 | **Siyasi və sosial statistika**<br>Bu fənn siyasi/sosial hadisələrin qarşılıqlı əlaqə və asılılıqlarını müəyyənləşdirir, onların inkişaf dinamikasını tənzimləyir, müqayisəliliyi təmin edir, mərkəzi və regional miqyasda mühüm siyasi və sosial-iqtisadi qərarlar qəbul etməyə kömək edir; statistik məlumatların toplanması prinsiplərini, onların işlənməsi qaydalarını, siyasi/sosial hadisə və proseslərin tədqiqatının aparılması, müxtəlif əlamətə malik siyasi/sosial hadisələrə müvafiq ümumiləşdirici göstəricilərin müəyyənləşdirilməsi və hesablanması üsullarını, nəzəri biliklərə yiyələnməklə sərbəst tədqiqat aparmağı öyrədir. | 3 |
| 29 | **Azərbaycanın konstitusiya hüququ**<br>Bu fənn Azərbaycanın konstitusiya quruluşunun əsasları, insan və vətəndaşın hüquqi statusunun əsasları, dövlətin siyasi-ərazi təşkili, dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının təşkili və fəaliyyəti əsasları, habelə hüquq və qanunun qarşılıqlı əlaqəsi, qanunvericilik sistemi ilə bağlı münasibətləri tənzim edən hüquq normalarının tədrisini əhatə edir. Fənnin öyrənilməsinin əsas məqsədini tələbələrdə Azərbaycanın konstitusion hüquqi normaları və institutları haqqında ilkin təəssürat yaratmaq, konstitusion inkişaf tarixi və konstitusionalizmin nəzəri əsasları, konstitusion nizamasalmanın obyektləri, dövlət, cəmiyyət və şəxsiyyət arasındakı konstitusion münasibətlərin əsasları, konstitusiya quruluşunun əsasları, xalq hakimiyyəti və xalq suverenliyi, habelə dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, onların konstitusion statusu haqqında fundamental biliklərə və s. yiyələnməsinə nail olmaq təşkil edir. | 3 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**[1]<br>*Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır.* | **60** |
| | **Təcrübə** | **30** |
| **Cəmi** | | **240** |

[1] Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

***Qeyd:** sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

***Qeyd:*** *sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. **"050210 Politologiya"** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, yerli, yaxud beynəlxalq özəl təşkilat və şirkətlərdə və s.) təşkil oluna bilər.

8.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera palanlanması) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) fromalaşdırılmalıdır.

8.4. Təcrübənin təşkili ali təhsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri təfərrüatlar əks olunur. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə

təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.

8.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

8.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. **"050210 Politologiya"** ixtisası üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə beynəlxalq əlaqələr üzrə mütəxəssis/məsləhətçi və siyasətçi olaraq fəaliyyət göstərə bilərlər. Bundan əlavə, məzunlar tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən sahədə, təşkilatda, idarədə, müəssisədə, birlikdə, qurumda, nazirlik və komitələrdə həmçinin agentlikliklərdə və araşdırma/beyin mərkəzlərində mütəxəssis olaraq da çalışa bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

*9.3.* **"050210 Politologiya"** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "Humanitar və sosial" ixtisaslar qrupuna daxil olan "060213 Beynəlxalq münasibətlər", "060208 Politologiya", "060211 Regionşünaslıq", "060216 Dövlət və ictimai münasibətlər", "060210 Sosiologiya", "060206 Tarix"(bəzi ixtisaslaşmalar üzrə), "060204 Jurnalistika"(Beynəlxalq jurnalistika), "060202 Fəlsəfə"(Sosial fəlsəfə), "İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan "060410 Dövlət və bələdiyyə idarəetməsi", "060412 Davamlı inkişafın idarə edilməsi"(Davamlı inkişafın siyasi idarəedilməsi), "060805 Sosial iş"(bəzi ixtisaslaşmalar üzrə), "060212 Hüquqşünaslıq"(İnsan hüquqları) Magistr proqramlarında davam etdirə bilərlər.

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikasının Təhsil
Nazirliyinin Aparat rəhbərinin müavini,

Elm, ali və orta ixtisas təhsil
şöbəsinin müdiri

__________________Yaqub Piriyev

"06" avqust 2020-ci il

Humanitar və sosial ixtisaslar
qrupu üzrə

Dövlət Təhsil Proqramlarını
Hazırlayan işçi qrupun sədri

_____________Fariz İsmayılzadə

"05" avqust 2020-ci il

Əlavə 1

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| **Təhsil Proqramının təlim nəticələri (PTN)**<br>**Tələbələr aşağıda sadalanan bacarıqları əldə edirlər:** |
|---|
| PTN 1 Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə, liderlik qabiliyyətinə yiyələnir, bir neçə xarici dildən sərbəst istifadə etməyi bacarır. |
| PTN 2 Fiziki və mədəni-coğrafi amillərin daxili və xarici siyasi proseslərə təsirini, onlar arasında qarşılıqlı əlaqəni və asılılığı müəyyən edə bilir; bu amillərin münaqişələrin, mədəni-sosial proseslərin inkişafında rolunu təhlil etməyi bacarır. |
| PTN 3 Müasir dünyada baş verən hadisə, proses və təzahürləri təhlil edərkən bu sahədə öyrəndiyi tarixi biliklərdən istifadə etməyi bacarır; müasir siyasi proseslərlə bağlı irəli sürdüyü fikirləri arqumentləşdirmək üçün siyasi tarixdən mənimsədiyi biliklərdən istifadə etməyi bacarır. |
| PTN 4 Müasir beynəlxalq münasibətlər sistemini, siyasi sistemləri, siyasi rejimləri, siyasi ideologiyaları, siyasi partiyaları, dövlət hakimiyyət orqanlarının fəaliyyətini, müxtəlif ölkələrin siyasi sistemlərini müqayisəli əsasda təhlil etməyi, bu məqsədlə siyasi təlimlərdən, nəzəriyyələrdən istifadə etməyi bacarır. |
| PTN 5 Çağdaş beynəlxalq siyasi prosesləri və siyasi institutların fəaliyyətini qiymətləndirmək, habelə mühakimələr və proqnozlar irəli sürmək bacarığına; dünyanın müxtəlif regionlarında siyasi sistemləri və siyasi prosesləri müqayisəli əsasda tənqidi təhlil edərək, əsas meylləri və problemləri müəyyən etməyi və bütövləkdə siyasi proseslərin inkişaf perspektivlərinə dair proqnozlar irəli sürməyi bacarır. |
| PTN 6 Müasir beynəlxalq münasibətlərin əsas problemlərini və çağırışları nəzəri təhlil etməyi bacarmaq; Münaqişələrə(xüsusilə daxili münaqişələrə) dair müasir nəzəriyyələri praktik situasiyaların üzərində tətbiq edə bilmək; Münaqişələrin həllinə dair yanaşmaların, siyasi, hüquqi, hərbi və digər vasitələrin konkret münaqişələrin həllində səmərəliliyini müəyyən etməyi bacarır. |
| PTN 7 Xarici siyasət sahəsində qərarların qəbul edilməsi və onların reallaşdırılması prosesini, dövlətlərin xarici siyasət kursunu tənqidi təhlil etməyi, xarici siyasətə dair nəzəriyyələrdən müxtəlif dövlətlərin xarici siyasət kursunun proqnozlaşdırılması prosesində istifadə etməyi bacarır. |
| PTN 8 Dünyanın və konkret ölkələrin siyasi sistemini, hadisə və prosesləri kəmiyyət və keyfiyyət metodlarından istifadə edərək tədqiq etmək səriştəsinə, siyasət elminin əsas |

| |
|---|
| nəzəriyyə və yanaşmalarını praktik situasiyalar üzərində tətbiq etməyi bacarır; müasir siyasətin əsas problemlərini və çağırışları nəzəri təhlil etməyi bacarır. |
| PTN 9 Müasir siyasi ideologiyaları təhlil edərək siyasi proseslərin idarə olunmasında istifadə etməyi bacarır, siyasi informasiya axınını seçki və bütövlükdə siyasi proseslərin məqsədlərinə uyğun yönlədirməyi bacarır, siyasi kommunikasiyaların nəticələrini proqnozlaşdırmaq qabiliyyəti var; siyasi partiyaların fəaliyyətini təhlil etməyi, seçici kütləsini idarə etməyi və seçki texnologiyalarını tətbiq etməyi bacarır, səsvermə prosesində müxtəlif davranış modellərini qiymətləndirməyi bacarır. |
| PTN 10 Azərbaycanın xarici siyasətinin konseptual əsaslarını, prioritetlərini və istiqamətlərini izah etməyi və əsaslandırmağı bacarır, bu sahədə dərin təhlillər aparmaq səriştəsi var; bütün diplomatik sənədləri tərtib və icra etmək, diplomatik sahədə fəaliyyət göstərmək üçün zəruri beynəlxalq sənədləri və normaları tətbiq etmək bacarıqları var; ölkə xaricində diplomatik strukturların işini təşkil etmək və idarə etməyi bacarır. |
| PTN 11 Azərbaycan Respublikasının təhlükəsizlik mühiti, əsas təhdidlər və onlara qarşı mübarizəyə dair sistemli bilikləri formalaşdırma qabiliyyəti var; türkçülük ideologiyasının Azərbaycanın müasir xarici siyasətinə təsirlərini ölçməyi və Azərbaycançılıq ideologiyasında yerini və əhəmiyyətini müəyyən etməyi bacarır; Azərbaycan Respublikasının Milli Təhlükəsizliyinin konseptual və hüquqi əsaslarını təhlil edərək onun tətbiq olunduğu mühiti izah etməyi bacarır. |
| PTN 12 Beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqələrinin əsas xüsusiyyətlərini, beynəlxalq təşkilatların və beynəlxalq müqavilələrin milli hüquqa tətbiqetmə üçün əhəmiyyətini bilmək, nəhayət beynəlxalq hüququn ayrı-ayrı sahələrinin əhəmiyyətindən və əsas xüsusiyyətlərindən istifadə etməklə, Azərbaycan Respublikası dövlətdaxili qanunverriciliyinin müxtəlif sferalarda inkişaf etdirilməsini əsaslandırmaq bacarığına malikdir. |
| PTN 13 Konstitusiya hüquq institutları haqqında dərin təsəvvürə, konstitusion inkişaf tarixi və konstitusionalizmin nəzəri əsasları, dövlət, cəmiyyət və şəxsiyyət arasındakı konstitusion münasibətlərin əsasları, Azərbaycanın konstitusiya quruluşunun siyasi, iqtisadı və sosial əsasları, xalq hakimiyyəti və xalq suverenliyi, siyasi-ərazi təşkili, dövlət hakimiyyətinin təşkili əsasları, seçki hüququnun anlayışı və prinsipləri, seçki prosesinin hüquqi tənzimi məsələləri, seçki sistemi, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, habelə yerli özünüidarənin təşkili və fəaliyyəti əsasları, konstitusiya nəzarəti institutunun mahiyyəti və funksional təyinatı haqqında fundamental biliklərə malik olmaq, habelə hüquq və qanunun qarşılıqlı əlaqəsi, qanunvericilik sisteminin mahiyyətini bilmək. |
| PTN 14 İqtisadi nəzəriyyənin, mikro və makro iqtisadiyyatın əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi göstəriciləri, fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, qarşılıqlı əlaqələrin fərqli senarilərini bilmək; İqtisadi terminologiyanı tam şəkildə |

| |
|---|
| mənimsəmək, açıq iqtisadiyyatı təhlil edə bilmək və nəzəri modellərdən istifadə etməklə təkliflər irəli sürməyi bacarmaq; böhran dövründə iqtisadiyyatın tənzimlənməsi alətlərindən istifadə etməyi bacarmaq, əmək bazarının fəaliyyətini və ona xas olan elementləri təhlil edə bilmək, iqtisadi təhlil, makroiqtisadi diaqnostika sahəsi üzrə baza biliklərə sahib olmaq və təhlil etməyi bacarmaq, iqtisadi məktəblərin fundamental konseptlərini başa düşmək və müasir fikir və yanaşmaları şərh edə bilmək, iqtisadi sistemləri müqayisəli təhlil etməyi bacarmaq. |
| PTN 15 Strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; İnformasiya və psixoloji savaş şəraitində müəyyən olunmuş strateji idarəetmə vəzifələrini icra etməyi bacarır; Siyasət, sosial və iqtisadi sahələrdə strateji idarəetməni həyata keçirməyi bacarır. |

**Fənn üzrə təlim nəticələri (FTN)**

| **"Azərbaycan tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən,ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır. |
| FTN 2 Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| FTN 3 Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| FTN 4 Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| FTN 5 Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| FTN 6 Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |
| FTN 7 Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |

| **"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, "Ulu öndər Heydər Əliyev və Azərbaycan dili" mövzusunda təqdimatlar hazırlamağı öyrənmək; "Azərbaycan dilində işgüzar və akademik kommunikasıya" fənninin məqsəd və vəzifələrini bilmək. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| **FTN 2** Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin |

| |
|---|
| düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| **FTN 3** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |
| **FTN 4** Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 5** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 6** Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| **FTN 7** Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarmaq. |

| **"Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirmək. |
| FTN 2 Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilmək; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilmək. |
| FTN 3 Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilmək; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 4 Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə və s. kimi texnologiyalara yiyələnmək. |
| FTN 5 İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 6 Öyrəndiyi dildə yazılı təqdimatlar hazırlamağı bacarır. |
| FTN 7 Konkret sual ətrafında rabitəli, məntiqli və adekvat şifahi və yazılı mətn formalaşdırmaq. |

| “Siyasi coğrafiya” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Fiziki və mədəni-coğrafi amillərin siyasi proseslərə təsirini müəyyən etməyi və izləməyi bacarmaq. |
| FTN 2 Müasir siyasi proseslərə tarixən formalaşan coğrafi sərhədlərin təsirini müəyyən etməyi bacarmaq. |
| FTN 3 Coğrafi biliklər və arqumentlər əsasında beynəlxalq siyasi prosesləri qiymətləndirmək səriştəsinə malik olmaq. |
| FTN 4 Dövlətlərin xarici siyasi davranışlarının coğrafi səbəblərini araşdırmağı və əsaslandırmağı bacarmaq. |
| FTN 5 Etnik,milli, dini və daxili siyasi proseslərin coğrafi səbəblərini və bağlılığını müəyyən etməyi bacarmaq. |
| FTN 6 Sərhədyanı və ərazi münaqişələri, habelə vətəndaş müharibələrinin coğrafi amillərlə əlaqəsini və bağlılığını aşkar etməyi bacarmaq. |

| “Siyasi tarix” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Siyasi tarix üzrə orjinal mənbələrlə/sənədlərlə işləməyi bacarmaq. |
| FTN 2 Siyasi tarixin inkişaf qanunauyğunluqları və əsas mərhələləri haqqında qazandığı sistemli bilikləri tətbiq etmək səriştəsinə malik olmaq. |
| FTN 3 Müxtəlif dövrlərdə mövcud olan siyasət konsepsiyalarını, prinsipləri və doktrinaları, idarəetmə formaları və ideologiyaları müasir siyasi proseslərlə əlaqələndirməyi və bu əsasda ümumiləşmiş nəticələr çıxararaq hadisələrin inkişaf tendensiyalarını müəyyən etməyi bacarmaq. |
| FTN 4 Siyasi tarixin müxtəlif hadisə və proseslərini müasir siyasi, mədəni proseslərlə əlaqələndirməyi və hadisə və proseslər arasında varisliyi izləməyi bacarmaq. |
| FTN 5 Siyasi tarixdən əldə etdiyi biliklərdən metodolji əsas kimi istifadə edərək digər sahələrdə tədqiqat aparmaq səriştəsinə malik olmaq. |
| FTN 6 Siyasi tarixin qlobal və regional sistemlərini, müxtəlif ölkələrdə mövcud olan idarəetmə formalarını müqayisə edərək, müasir beynəlxalq sistemin və milli dövlətlərin təkamülü kontekstində dünyanın perspektiv inkişafına dair sadə proqnozlar irəli sürməyi, təkamül və inqilabi modellərin nisbətini müəyyən etməyi bacarmaq. |
| FTN 7 Müasir daxili siyasi münaqişələrin və böhranların tarixi səbəblərini müəyyən etməyi və izah etməyi bacarmaq. |

| “Siyasi psixologiya” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Siyasi və psixoloji nəzəriyyələri təhlil etməyi bacarmaq. |
| FTN 2 Siyasi şəxsiyyətin formalaşması, siyasi sosiallaşma prosessləri sahəsində biliklərini nümayiş etdirə bilmək. |
| FTN3 Sosial və siyasi qrupların/kütlələrin davranışının psixoloji aspektlərini təhlil etməyi bacarmaq. |

| |
|---|
| FTN 4 Psixoloji bilikləri tətbiq edərək siyasi hadisələri təhlil və izah etməyi bacarmaq. |
| FTN 5 Siyasi psixologiya sahəsində tədqiqat aparıb təqdim edə bilmək. |
| FTN 6 Siyasi liderlərin davranış və fəaliyyətlərini təhlil edib qiymətləndirməyi bacarmaq. |

| **"Siyasi fikir tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Müxtəlif tarixi dövrlərdə sosial-siyasi düşüncələrin təkamülünü, əsas konsepsiyaları müqayisə etməyi və müasir siyasi proseslərə təsiri kontekstində qiymətləndirməyi bacarmaq. |
| FTN 2 Müasir siyasi sistemin formalaşmasına təsir etmiş vacib elmi nəzəri təlimləri ilkin mənbədən oxumağı və təhlil etməyi bacarmaq. |
| FTN 3 Demokratiya, insan hüquqları və azadlıqları, hakimiyyətin bölünməsi, ədalət, nizam və d., müasir dövrdə aktual olan kateqoriyaların meydana çıxması, siyasi fikir tarixində inkişaf etdirilməsi, qərb və şərq siyasi fikrində bu kateqoriyalara baxışların təhlili əsasında siyasi proseslərə islahatçı və yenilikçi kimi yanaşmağı bacarmaq. |
| FTN 4 İctimai-siyasi institutların və proseslərin formalaşması və inkişafı haqqında qazandığı biliklər əsasında peşə fəaliyyətində səmərəli qərarlar qəbul etmə səriştəsinə malik olmaq. |
| FTN 5 Xarici siyasi və daxili siyasi proseslərin təhlili üçün qazandığı bilikləri tədbiq etməyi bacarmaq. |
| FTN 6 Siyasi sahədə tədqiqat aparmaq və təhlil etmək üçün qazandığı metodolji bilikləri tətbiq etməyi bacarmaq. |

| **"Siyasət nəzəriyyəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Seçki prosesinin və siyasi hakimiyyətin formalaşmasını təhlil edərək onun demokratikliyini ölçmə səriştəsinə. |
| FTN 2 Siyasi proseslərdə iştirak etmək, liderlik və idarəetməyi bacarmaq. |
| FTN 3 İdeoloji və psixoloji hücumlara qarşı müqavimət göstərmək və ölkənin siyasi maraqlarını müdafiə etmək bacarığına. |
| FTN 4 Müasir politoloji konsepsiyaları və nəzəriyyələri mənimsəyərək siyasi prosesləri təhlil etmək və qiymətləndirməyi bacarmaq. |
| FTN 5 Siyasi prosesləri yönləndirməyi bacarmaq. |
| FTN 6 Siyasi sistemlər, siyasi rejimlər, siyasi partiyalar, ictimai hərəkatlar, siyasi ideologiya, siyasi psixologiya və siyasi mədəniyyət haqqında biliklərə əsaslanaraq siyasi sahədə tədqiqat aparmağı bacarmaq. |

| **"Müqayisəli politologiya" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Siyasi sistem nəzəriyyəsinə dair əsas yanaşmaları nəzərdən keçirmək, siyasi sistem, onun strukturu, əsas komponentləri haqqında əsaslı biliklərə yiyələnmək, siyasi sistemlərin müqayisəli təhlili əsasında onların inkişafına dair proqnoz verə bilmək. |
| FTN 2 Dünya miqyasında siyasi modelləri müqayisə etməklə fərqlilikləri və oxşarlıqları müəyyən etməyi bacarmaq. |

| |
|---|
| FTN 3 Dünyanın müxtəlif ölkələrinin siyasi sisteminin fəaliyyətində siyasi zorakılıq və siyasi etirazları müqayisəli təhlil etmək və fərqli meyarlar əsasında ümumiləşmələr aparmağı bacarmaq. |
| FTN 4 Dünyanın aparıcı ölkələrinin siyasi sistemlərinin fəaliyyət mexanizmlərini və xüsusiyyətlərini öyrənərək, onların inkişaf meyllərini müəyyən etməyi bacarmaq. |
| FTN5 Müxtəlif dövlətlərdə qanunverici-icraedici hakimiyyətlər arasında qarşılıqlı münasibətlərin xüsusiyyətləri, müxtəlif siyasi rejimlərin spesifikası, mərkəzi və yerli hakimiyyətlər arasında mövcud olan münasibətləri təhlil etmək, konkret ölkədə demokratiyanın inkişaf səviyyəsini müəyyən etməyi bacarmaq. |
| FTN 6 Müxtəlif dövlətlərin siyasi partiyaları, partiya və seçki sistemləri haqqında biliklərə əsaslanaraq bu sahədə müstəqil tədqiqat/araşdırma aparmağı bacarmaq. |
| FTN 7 Siyasi sistemlərin ideoloji əsaslarının və dəyərlər sisteminin dərindən təhlili əsasında milli siyasi sistemin inkişafında faydalı olacaq təklif və tövsiyələr irəli sürməyi bacarmaq. |

| **"Xarici siyasətin təhlili" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Xarici siyasətə dair sənədləri tərtib və icra etməyi bacarır. |
| FTN 2 Xarici siyasət sahəsində qərar qəbulu bacarıqlarına malik olmaq. |
| FTN 3 Xarici siyasətə dair təhlillər və tədqiqatlar aparmaq, qiymətləndirmə və proqnoz verməyi bacarmaq. |
| FTN 4 Beynəlxalq münasibətlərdə aparıcı rol oynayan ölkələrin xarici siyasətinin formalaşması, qərar qəbulu və həyata keçirilməsi prosesini təhlil etmək və müxtəlif meyarlar əsasında ümumiləşdirməyi bacarmaq. |
| FTN 5 Xarici siyasi mühitin inkişaf və dəyişməsini proqnozlaşdırmağı bacarmaq. |
| FTN 6 Xarici siyasətə dair elmi nəzəriyyələri və konsepsiyaları praktik situasiyalar üzrəində tətbiq etməyi bacarmaq. |

| **"Beynəlxalq münasibətlər nəzəriyyəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Beynəlxalq münasibətlərin əsas elmi nəzəriyyə və yanaşmalarını tənqidi təhlil edərək onlara dair müstəqil fikir bildirmək, mülahizələr/mühakimələr irəli sürməyi bacarmaq. |
| FTN 2 Beynəlxalq münasibətlərin əsas elmi nəzəriyyə və yanaşmalarını praktik situasiyalar üzərində tətbiq etməyi bacarmaq. |
| FTN 3 Beynəlxalq münasibətlərdə hadisə və proseslərin inkişafını nəzəri qanunauyğunluqlar əsasında təhlil etməyi bacarmaq. |
| FTN 4 Müasir beynəlxalq münasibətlərin əsas problemlərini və çağırışları nəzəri təhlil etməyi bacarmaq. |
| FTN 5 Beynəlxalq münasibətlərə dair müxtəlif elmi nəzəriyyələrin və yanaşmaların müəlliflərinin əsərlərini ilkin mənbələrdən oxumaq və tənqidi təhlil etməyi bacarmaq. |
| FTN 6 Beynəlxalq münasibətlərdə baş verən hadisələri müstəqil olaraq təhlil etməyi bacarmaq. |

| “Siyasi ideologiyalar” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 İdeologiya anlayışı, onun məzmunu, tarixi təakmülü və tarixi siyasi proseslərdə rolu barədə sistemli biliklərə malik olmaq və praktik ümumiləşdirmələr apara bilmək. |
| FTN 2 Siyasi ideologiyaların müasir cəmiyyətlərdə, siyasi sistemlərin idarə olunmasında rolunu müəyyən etməyi bacarmaq. |
| FTN 3 Siyasi ideologiyaların dövlət maraqlarına təsiri və onun formalaşmasında rolunu təhlil etməyi bacarmaq. |
| FTN 4 Siyasi partiyaların və siyasi liderlərin fəaliyyətinin ideoloji aspektlərini təhlil edə və qiymətləndirə bilmək. |
| FTN 5 Siyasi elitanın fəaliyyətində və siyasi kütlələrin davranışlarında ideoloji aspektləri müəyyən etmək və tənzimləyə bilmək. |
| FTN 6 Müxtəlif dinlərin fəaliyyətində ideoloji amilləri tənqidi təhlil edə və onun siyasi proseslərə təsirini qiymətləndirə bilmək. |

| “Azərbaycanın siyasi təlimlər tarixi” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Müxtəlif dövrlərdə sosial və siyasi proseslərə dair azərbaycanlı mütəfəkkirlər tərəfindən irəli sürülmüş ideya və yanaşmaları öyrənmək, onların müasir dövrdə aktuallığını müəyyən etmək və istifadə etməyi bacarmaq. |
| FTN 2 Azərbaycanın siyasi düşüncə tarixinin əsas mərhələlərini və nümunələrini təhlil etməyi bacarmaq. |
| FTN 3 Müasir azərbaycanlı kimliyinin və azərbaycançılq ideologiyasının formalaşmasında siyasi təlimlərin rolunu və təsirini müəyyən etmək. |
| FTN 4 Azərbaycanın siyasi ideyalar/fikir tarixində olan azadlıq və bərabərlik konseptlərinin dünyada siyasi azadlıq ideyalarının inkişafına təsirini təhlil edə bilmək. |
| FTN5 Azərbaycanın siyasi fikir tarixində mühüm yer tutan mütəfəkkirlərin əsərlərini müqayisəli təhlil edə bilmək. |
| FTN 6 Azərbaycanın siyasi fikir tarixindən əldə etdiyi biliklərindən siyasi tədqiqiatlar zamanı istifadə etməyi bacarmaq. |

| “Sosialogiya” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Sosial və peşə problemlərinin həllində sosial, humanitar və iqtisadi elmlərin əsas prinsip və metodlarından istifadə etməyi bacarmaq. |
| FTN 2 Sosial sahənin və idarəetmənin inkişafında qlobal, milli və regional xüsusiyyətləri və müasir şəraiti nəzərə almaq. |
| FTN 3 Müxtəlif sosial qrupların sosial həyatı, rifahı və sosial sahədə davranış xüsusiyyətlərini bilmək. |
| FTN 4 Milli-mədəni məkanın xüsusiyyətlərini və müxtəlif milli, cins, yaş qruplarının və sosial qurumların fəaliyyətlərini sosial layihə obyekti kimi tətbiq etməyi bacarmaq. |

| |
|---|
| FTN 5 Sosioloji biliklərin əsaslarını peşə və peşə fəaliyyətlərində və müxtəlif sosial hadisələrin təhlilində yaradıcı şəkildə tətbiq etmək. |
| FTN 6 Müstəqil olaraq sosioloji biliklərini sistemləşdirmək və dərinləşdirmək qabiliyyətinə malik olmaq. |

| **"Siyasi partiyalar və seçki texnologiyaları" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 XXI əsrdə siyasi partiyalar və partiya sistemlərinin inkişaf istiqamətləri və perspektivlərini müəyyənləşdirməyi bacarmaq. |
| FTN 2 Partiya, partiya sistemlərinin və seçki sistemlərinin müqayisəli təhlilini və qiymətləndirilməsini bacarmaq. |
| FTN 3 Seçici qruplarının/kütlələrin seçki prosesində davranışlarını təhlil etməyi və müxtəlif meyar üzrə ölçməyi bacarmaq. |
| FTN 4 Seçkilərin təşkili və keçirilməsi prosesində demokratik prinsiplərin pozulmasını müəyyən etməyi bacarmaq. |
| FTN 5 Səsvermə prosesində müxtəlif davranış modellərini qiymətləndirərək onların müasir seçki rəqabətində tətbiq olunmasını bacarmaq. |
| FTN 6 Seçki sistemlərinin və institutların seçki prosesinə təsirlərini təhlil edə bilmək; seçki texnologiyalarının əsas xüsusiyyətləri və onların seçki kampaniyalarında həyata keçirilmə mexanizmini tətbiq etmək. |

| **"Müasir münaqişələr və onların həlli" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Münaqişələrə(xüsusilə daxili münaqişələrə) dair müasir nəzəriyyələri öyrənərək praktik situasiyaların üzərində tətbiq etməyi bacarmaq. |
| FTN 2 Münaqişələrin səbəblərini izah edə bilmək və onların növlərini, xüsusiyyətlərini müəyyən etməyi bacarmaq. |
| FTN 3 Münaqişələrin beynəlxalq münasibətlər sisteminə təsirini müəyyən etməyi bacarmaq. |
| FTN 4 Münaqişələrin həllinə dair yanaşmaları təhlil edərək, siyasi, hüquqi, hərbi və digər vasitələrin konkret münaqişələrin həllində səmərəliliyini müəyyən etməyi bacarmaq. |
| FTN 5 Münaqişələrin tənzimlənməsi və həlli texnologiyalarının praktik tətbiqi hallarını təhlil edərək, onların səmərəliliyini müəyyən eməyi bacarmaq. |
| FTN 6 Müasir dövrdə vətəndaş müharibələrinin/münaqişələrin geniş yayılmasının beynəlxalq sistemin inkişaf xüsusiyyətləri ilə əsaslandırmağı bacarmaq. |

| **"Azərbaycan Respublikasının xarici siyasəti" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|

| |
|---|
| FTN 1 Azərbaycan Respublikasının xarici siyasətinin konseptual əsaslarını, prioritetlərini və istiqamətlərini izah etməyi və əsaslandırmağı bacarır, bu sahədə dərin təhlillər aparmaq səriştəsi var |
| FTN 2 Azərbaycan Respublikasının xarici siyasət strukturlarını, qərar qəbulu və həyata keçirilmə mexanizmini təhlil edə bilmək və praktik nümunələr əsasında izah etməyi bacarmaq. |
| FTN 3 Azərbaycan Respublikasının müxtəlif dövlətlərlə siyasi- diplomatik, iqtisadi və mədəni sahələrdə ikitərəfli və çoxtərəfli münasibətlərini tənqidi təhlil etmək və müxtəlif ölçülər əsasında qiymətləndirməyi bacarmaq. |
| FTN 4 Ermənistan Azərbaycan münaqişəsinə dair danışıqlar prosesinin mərhələləri, qəbul edilən sənədlərin və bəyannamələrin tənqidi təhlili və münaqişə ətrafında yaranmış siyasi-beynəlxalq siyasi vəziyyətin öyrənilməsi əsasında onun həlli perspektivlərinə dair proqnozlar irəli sürməyi bacarmaq. |
| FTN 5 Azərbaycanın dünyada güclənən mövqelərini elmi və siyasi cəhətdən izah etməyi bacarmaq. |
| FTN 6Azərbaycan Respublikasının müxtəlif istiqamətlərdə və formalarda həyata keçirilən xarici siyasətinə dair sənədləri tənqidi təhlil etmək, xarici siyasətin səmərəliliyinin artırılmasına dair fikir və mülahizələr irəli sürməyi bacarmaq. |

| **"Siyasi təhlil və tənqidi təfəkkür" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Müstəqil tədqiqat aparmaq və təhlil edə bilmək üçün müxtəlif tədqiqat metodlarından istifadə etməyi bacarmaq. |
| FTN 2 Müxtəlif sorğular keçirmək, nəticələrini təhlil etmək və ümumiləşdirməyi bacarmaq. |
| FTN 3 Statistik metodlardan istifadə edərək tədqiqat apara bilmək. |
| FTN 4 Topladığı faktları, informasiyaları kompüter proqramları vasitəsi ilə emal etməyi bacarmaq. |
| FTN 5 Mürəkkəb məsələlərin bir neçə mümkün həlli yolunu müəyyən etmək, alternativ mülahizələr irəli sürmə bacarığına yiyələnmək. |
| FTN 6 Əsaslandırılmış nəticələr çıxarmaq məqsədi ilə məlumatları və faktları sintez etmə bacarığına yiyələnmək, taftalogiya, ziddiyyət, səfsətə və paradoksları müəyyən edə bilmək. |
| FTN 7 Arqumentlərin məntiqiliyini və etibarlılığını, eləcə də müvafiq məlumatın və faktların verilən arqumentlə bağlılıq və arqumentə aidiyyət dərəcəsini dəyərləndirə bilmək. |
| FTN 8 Ümumi məntiqi və ritorik səfsətələri müəyyən edə bilmək. |
| FTN 9 Tezis, mülahizə , mühakimə və arqumentləri formalaşdıra bilmək. |
| FTN 10 Eyniyyət, ziddiyyətsizlik , üçüncünü istisna və kafi əsas qanunu kimi formal məntiq qanunlarını bilmək, bunları əqli nəticə və sübut prosesində tətbiq edə bilmək. |

| **"Beynəlxalq hüquq" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|

| |
|---|
| FTN 1 Beynəlxalq hüququn mahiyyətini və fəaliyyət istiqamətlərini bilməklə beynəlxalq münasibətlərin tənzimlənməsi qaydalarından, mənbələrindən, prinsiplərindən istifadə edə bilmək. |
| FTN 2 Beynəlxalq müqavilələrin mahiyyətini və əsas elementlərini bilməklə dövlətlərarası münasibətlərin tənzimlənməsində onların zəruri rolunu əsaslandırmaq. |
| FTN 3 Beynəlxalq hüququn əsas prinsiplərini, o cümlədən beynəlxalq hüquq normalarının məzmununu bilməklə onların əhəmiyyətini qiymətləndirmək. |
| FTN 4 Beynəlxalq təşkilatların beynəxalq və milli hüquqi tənzimetmə üçün vacib əhəmiyyətini əsaslandırmaq. |
| FTN 5 Beynəlxalq hüququn ayrı-ayrı sahələrinin ayrılıqda əsas xüsusiyyətlərini və fəaliyyət istiqamətlərini geniş məzmunda təhlil etmək. |
| FTN 6 Beynəlxalq hüququn ayrı-ayrı sahələrinin əhəmiyyətindən və əsas xüsusiyyətlərindən istifadə etməklə, Azərbaycan Respublikası dövlətdaxili qanunvericiliyinin müxtəlif sferalarda inkişaf etdirilməsini əsaslandırmaq. |
| FTN 7 Beynəlxalq hüququn prinsip və normalarından istifadə etməklə aktual beynəlxalq problemləri təhlil etməyi və qiymətləndirməyi bacarmaq. |

| **“İqtisadiyyatın əsasları” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İqtisadi nəzəriyyənin əsas kateqoriyaları və anlayışları haqqında biliklər əldə etmək; iqtisadi subyektlərin davranış prinsiplərini öyrənmək. |
| FTN 2 İqtisad elminin konsepsiyaları və istiqamətləri, iqtisadi modellər haqqında təhlillərlə tanış olmaq; iqtisadiyyatda bazar mexanizminin rolu haqqında təsəvvürə malik olmaq, iqtisadi hadisə və prosesləri məzmun və formal təhlilinin ilkin vərdişlərini öyrənmək. |
| FTN 3 İqtisadi proseslər, iqtisadi mexanizmlər, iqtisadi resurslar, iqtisadi qanunauyğunluqlar haqqında biliklər əldə etmək. |
| FTN 4 Makroiqtisadiyyat və mikroiqtisadiyyatın əsasları haqqında biliklər formalaşdırmaq. |
| FTN 5 Bazar iqtisadiyyatının fəaliyyət qanunauyğunluqlarını; bazar iqtisadiyyatında dövlətin rolu və funksiyalarını qiymətləndirə bilmək. |
| FTN 6 İqtisadi subyektlərin qərar qəbul etmə mexanizmini, ümumi iqtisadi göstəriciləri təhlil etmək. |

| **“Siyasi kommunikasiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Seçki və informasiya- kommunikasiya proseslərini təhlil edə bilmək. |
| FTN 2 Müəyyən olunmuş vəzifələrə uyğun informasiya axınını yönləndirməyi bacarmaq. |
| FTN 3 Siyasi kommunikasiyanın nəticələrini proqnozlaşdırmağı bacarmaq. |
| FTN 4 Siyasi kommunikasiyaya dair nəzəri konsepsiyaları və modelləri təhlil edə və qiymətləndirə bilmək. |
| FTN 5 Dövlətin informasiya siyasəti və media ilə iş sahəsində səriştələrə malik olmaq. |

| |
|---|
| FTN 6 Siyasi sistemlə cəmiyyət arasında siyasi informasiyanın fasiləsiz ötürülməsini təmin etmək. |
| PTN 7 İnformasiyanı siyasi məqsədlər üçün idarə edə və tənzimləyə bilmək. |

| **"Müasir informasiya- kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Yeni informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| FTN 2 Müasir informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| FTN 3. İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| FTN 4. Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| FTN 5. Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarını qiymətləndirir. |
| FTN 6. Müasir Əməiyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| FTN 7. Proqramlaşdırma bacarığına yiyələnir. |
| FTN 8. Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| FTN 9. Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| FTN 10. İnformasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |
| FTN 11. Ms Office 365 paket proqramlarını mənimsəyir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| FTN 12. Verıənlər bazası haqqında biliyə yiyələnir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |

| **"İxtisas yönümlü xarici dil" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Dilin qrammatik quruluşunu mənimsəmək, qrammatik səhvləri müəyyən etmək və qrammatik cəhətdən qüsursuz mətn parçaları formalaşdıra bilmək; dilin struktur vahidlərinin kommunikativ funksiyalarına yiyələnmək və onlardan düzgün istifadə etmək. |
| FTN 2 Ünsiyyətin qurulması prosesində dilin zəngin resurslarından maksimum yararlanacaq səviyyədə dilin leksik korpusuna yiyələnmək; ixtisası ilə bağlı yazışma aparır, peşəsi ilə bağlı materialları yazılı və şifahi tərcümə etməyi bacarmaq. |
| FTN 3 Nitqi dinləyici üçün anlaşıqlı, vacib məqamları nəzərə çarpdıracaq qədər ekspressiv və məntiqli şəkildə qurmaq; ixtisası ilə bağlı peşəkar əlaqələr və ünsiyyət qurmağı bacarmaq. |
| FTN 4 Effektiv eşidib-anlama vərdişlərini inkişaf etdirmək. |
| FTN 5 Dinlədiyi mətnlərin təhlilini apara bilmək; əsas fikirləri, detalları şərh etmək; spesifik ifadələrin, idiomların, terminlərin mənasını anlamaq; intonasiya və digər prosodik vahidləri fərqləndirmək və bunların əsasında danışanın mövzuya emosional-ekspressiv münasibətini izah etmək. |

| |
|---|
| FTN 6 Müxtəlif konkret və mücərrəd mövzulu,elmi və publisistik- yazılı mətnləri anlamaq, mətndə yer alan əsas fikirləri şərh etmək, mətnin əsas məqamlarını parafraz etmək və ümumiləşdirmək. |
| FTN 7 Öyrənilən dilin əsas ünsiyyət vahidlərinin normativ, kommunikativ və etik aspektlərdə tətbiqini bacarmaq; Sərbəst fikir söyləmək, tutarlı və zəngin nitq nümayiş etdirmək. |

| **“Mülki müdafiə” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Fövqəılada hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilmək; |
| FTN 2 Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen FH-də hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarındadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək; |
| FTN 3 Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək; |
| FTN 4 Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək; |
| FTN 5 Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək; |
| FTN 6 FH-in nəticələrinin aradan qaldırılması yollarını bilmək. Qəza- xilasetmə və digər təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirmək. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənmək.Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarmaq. |

| **“Strateji idarəetmə” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İnformasiya resurslarının strateji idarəolunmasını bacarmaq. |
| FTN 2 Strateji məqsədləri düzgün formalaşdırmaq, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarmaq. |
| FTN 3 İnformasiya və psixoloji savaş şəraitində müəyyən olunmuş strateji idarəetmə vəzifələrini icra etməyi bacarmaq. |
| FTN 4 Siyasət, sosial və iqtisadi sahələrdə strateji idarəetməni həyata keçirməyi bacarmaq. |

| |
|---|
| FTN 5 Qərar qəbul etmə prosesi, bu prosesdə risklərin minimuma endirilməsi, strategiyaların reallaşdırılması, onlara nəzarət etməklə bağlı səriştəyə malik olmaq. |
| FTN 6 Strateji idarəetmənin metodlarını praktik tətbiq etməyi və onun effektliyini qiymətləndirə bilmək. |

| **"Azərbaycan Respublikası milli təhlükəsizliyinin əsasları" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Milli təhlükəsizliklə bağlı nəzəriyyələri praktik nümunələr üzərində tətbiq etməyi bacarmaq. |
| FTN 2 Azərbaycan Respublikasının Milli Təhlükəsizliyinin konseptual və hüquqi əsaslarını təhlil edərək onun tətbiq olunduğu mühiti izah etməyi bacarmaq. |
| FTN 3 Azərbaycan Respublikasının transmilli təhdilərə qarşı mübarizəsini təhlil etmək və qiymətləndirmək. |
| FTN 4 Azərbaycan Respublikasının təhlükəsizlik mühiti, əsas təhdidlər və onlara qarşı mübarizəyə dair sistemli bilikləri formalaşdırma qabiliyyəti var. |
| FTN 5 Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ayrı-ayrı elementləri, istiqamətlərinə dair sistemli baxışlar formalaşdırmaq qabiliyyəti var |
| FTN 6 Azərbaycan Respublikasının beynəlxalq təhlükəsizliyin təmin olunmasında yerini və rolunu təhlil edə və müəyyənləşdirə bilmək. |

| **"Siyasi və Sosial statistika" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İnformasiya emalının kompyuter metodlarından istifadə etməyi bacarmaq. |
| FTN 2 Siyasi davranış barədə dəlil, analitik məlumatları təhlil edir və ümumiləşdirmək. |
| FTN 3 Siyasi fərziyyəni yoxlamaq üçün müxtəlif statistik təhlillərdən istifadə edə bilmək. |
| FTN 4 Əhali statistikası, demoqrafik göstəricilərin hesablanması metodologiyasından istifadə etmək. |
| FTN 5 Siyasətdə statistik metodların istifadə sahələrini və statistikanın əsas sahələri üzrə bilik və bacarıqlar əldə etmək. |
| FTN 6 Statistik proqramlardan istifadə, hesabatın hazırlanması və yazılması sahəsində səriştələrə malik olmaq. |

| **"Azərbaycanın konstitusiya hüququ"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Azərbaycanın konstitusiya quruluşunun əsasları, insan və vətəndaşın hüquqi statusunun əsasları, dövlətin siyasi-ərazi təşkili, dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının təşkili və fəaliyyəti əsaslarını təhlil edə bilmək. |
| FTN 2 Hüquq və qanunun qarşılıqlı əlaqəsi, qanunvericilik sistemi ilə bağlı münasibətləri tənzim edən hüquq normalarının məcmusunu təhlil etmək və qiymətləndirə bilmək. |
| FTN 3. Normativ hüquqi aktların, o cümlədən Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qanunvericilik ierarxiyasında yerini müəyyən etmək, konstitusiya |

| |
|---|
| qanunvericiliyində mövcud olan kolliziyaların mahiyyətini aydınlaşdırmaq, konstitusiya qanunvericiliyinin təhlilini aparır və müvafiq istiqamətlər üzrə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək. |
| FTN 4. Seçki hüququna dair təhlil aparır, İcra hakimiyyəti mexanizmində konkret icra hakimiyyəti orqanının yerini müəyyən edir, icra hakimiyyəti orqanını idarəçilik sahəsində dövləti funksiyanı yerinə yetirən publik hüquqi şəxslərdən fərqləndirmək. |
| FTN 5. Azərbaycanda dövlət, cəmiyyət və şəxsiyyət arasındakı konstitusion münasibətlərin əsaslarını izah edə bilmək. |
| FTN 6. Dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, onların konstitusion statusu haqqında əsaslı biliklərini nümayiş etdirə bilmək. |

**Əlavə 2**

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisasın Təhsil Proqramının təlim nəticələrinin əldə olunmasına fənnlərin necə dəstək verdiyini müəyyən etməlidir.

| Blokun adı | Fənlərin adı | Proqramın təlim nəticələri | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN10 | PTN11 | PTN12 | PTN13 | PTN14 | PTN15 |
| Ümumi fənlər | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | | | | | | |
| | Azərbaycanın tarixi | X | | | | | | | | | | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | | | | | | |
| İxtisas fənləri | Siyasi coğrafiya | | X | | X | | | | | | X | | | | | |
| | Siyasi tarix | | | X | X | | X | | | | | | | | | |
| | Sosiologiya | | | | | | | | | | | X | | | | |
| | Siyasi fikir tarixi | | | X | X | | | | | | | | | | | |
| | Siyasət nəzəriyyəsi | | | | X | X | | | X | X | | | | | | |
| | Müqayisəli politologiya | | | | X | X | | | | X | | | | | | |
| | Xarici siyasətin təhlili | | | | X | X | X | X | | | X | | | | | |
| | Beynəlxalq münasibətlər nəzəriyyəsi | | | | X | X | X | X | X | | X | | | | | |
| | Siyasi ideologiyalar | X | | X | X | | | | | X | X | | | | | |
| | Azərbaycanın siyasi təlimlər tarixi | X | | | X | | | | | | X | X | | | | |
| | Siyasi psixologiya | X | | | | | | | | | | | | | | X |
| | Siyasi partiyalar və seçki texnologiyaları | | | | X | | | | X | X | | | | | | |
| | Siyasi kommunikasiya | | | | | | | | | X | | | | | | |
| | Beynəlxalq təhlükəsizlik | | X | | | | | | | | | X | | | | |
| | Siyasi və sosial statistika | | | | | X | | | X | X | | | | | | |
| | Azərbaycanın konstitusiya hüququ | | | | | | | | | | | | X | X | | |
| | İnteqrasiya prosesləri və beynəlxalq təşkilatlar | | | | X | X | | | X | | | | | | | |
| | Müasir münaqişələr və sülh prosesi | | X | | | | X | | X | X | | | | | | |
| | Azərbaycan Respublikasının xarici siyasəti | | | | | | | | | | X | X | | | | |
| | Siyasi təhlil və tənqidi təfəkkür | X | | | | X | | | X | X | | | | | | |
| | Beynəlxalq hüquq | | | | | | | | | | | | X | | | |
| | İqtisadiyyatın əsasları | | | | | | | | | | | | | | X | |
| | Müasir informasiya-kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi | | | | | | X | X | | X | | X | | | | |
| | İxtisas yönümlü xarici dil | X | | | | | X | X | | | | | | | | |
| | Mülki müdafiə | | | | | | | | | | | | | | | |
| | Strateji idarəetmə | X | | | | X | X | | | X | | X | | | X | X |
| | Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasları | X | | | | | | | | | X | X | | | | |
| | | | | | | | | | | | | | | | | |